*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 dekabr 2017-ci il № 96 (2213) Qiyməti 25 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

*Dekabrın 18-də Milli Olimpiya Komitəsində 2017-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*




- Əziz dostlar, 2017-ci il başa çatır. Bu il Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindirmişlər. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Hər il idmançılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu, onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar.

Bu il bir çox idman qələbələrimiz olubdur. Onların arasında bir neçə hadisəni bu gün qeyd etmək istərdim. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olmuşlar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar. Şahmat üzrə Avropa çempionatında birinci olmaq doğrudan da böyük nailiyyətdir, böyük qələbədir.

Bu il bizim iki idmançımız - Məhəmmədrəsul Məcidov və Hacı Əliyev boks və sərbəst güləş üzrə üçqat dünya çempionu olmuşlar. Bu da tarixi qələbədir. Olimpiya idman növündə üçqat dünya çempionu olmaq böyük uğurdur, böyük qələbədir.

Azərbaycan idman məktəbinin yetirməsi - azərbaycanlı idmançı Ramil Quliyev bu il ilk dəfə olaraq yüngül atletika üzrə dünya çempionu olmuşdur. Bu da tarixi qələbədir.

Komanda idman növlərində də idmançılarımız çox yaxşı nəticələr göstərmişlər. Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız dördüncü yerə layiq görüldülər. Onlar hətta medal qazanmağa da çox yaxın idilər. Yarımfinal görüşündə qələbəyə çox yaxın idilər. Ancaq hesab edirəm ki, Avropada voleybol kimi çox məşhur idman növündə dördüncü olmaq da böyük nailiyyətdir. Əlbəttə ki, bizim futbolçularımız - hamımız üçün doğma olan "Qarabağ" komandası tarixdə ilk dəfə olaraq Çempionlar Liqasının final mərhələsində iştirak etmişdir. Bu, Azərbaycan futbolunun böyük qələbəsidir və komanda ölkəmizi, xalqımızı, Qarabağı bu oyunlarda layaqətlə təmsil etmişdir.

Mən xatırlayıram, biz Olimpiya Stadionunu inşa edərkən bəzi fikirlər səslənirdi ki, bu qədər böyük arena bəlkə də bizə lazım deyil, Tofiq Bəhramov adına 30 minlik stadionumuz, digər stadionlarımız var və bu arena heç vaxt dolmayacaq. Ancaq bu gün həyat göstərir ki, "Qarabağ" futbol klubunun oyunlarına 60 mindən çox tamaşaçı gəlmişdi. Bu gün Bakı Olimpiya Stadionu dünya miqyasında seçilən Olimpiya stadionlarından biridir. Təsadüfi deyil ki, UEFA Avropa Liqasının final görüşü də bir neçə ildən sonra bu stadionda keçiriləcək. Eyni zamanda, futbol üzə Avropa çempionatının bir neçə oyunu da bu stadionda keçiriləcək.

Bu il Azərbaycan Gimnastika Federasiyasının nümayəndəsi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti seçilmişdir. Bu da tarixi nəticədir. Çünki bu günə qədər heç vaxt Azərbaycan nümayəndəsi Avropa idman federasiyasına rəhbərlik etməmişdir. Bu da son illər ərzində Azərbaycanda gimnastika idman növünün, ümumiyyətlə, idmanın inkişafının təzahürüdür. Ölkəmizdə keçirilmiş bir çox beynəlxalq yarışlar artıq Azərbaycanı bütün dünya idman ictimaiyyətinə çox dinamik inkişaf edən, müasir, güclü dövlət kimi təqdim etdi və bunun nəticəsidir ki, bizim nümayəndələrimiz indi Avropanın idman ailəsində də yüksək vəzifələr tuturlar.

Əlbəttə ki, bu il ən böyük qələbəmiz Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri olmuşdur. Bu Oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi, əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən Oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dünya miqyasında böyük idman dövlətidir. 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə Azərbaycan komandası layiq görüldü. Bu Oyunlarda üç mindən çox idmançı, minlərlə mütəxəssis, qonaq iştirak edib və Azərbaycan həqiqətləri ilə tanış oldular.

Mən sadəcə olaraq bir neçə önəmli idman hadisəsini diqqətinizə çatdırdım. Ancaq qələbələrin sayı çox olubdur. Qeyd etdiyim kimi, 851 medal qazanmışıq və sevindirici hal ondan ibarətdir ki, həm döyüş, həm komanda, həm də intellektual idman növlərində bizim idmançılarımız çempiondurlar, qalibdirlər.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyev 2017-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

(Əvvəli 1-ci səhifədə)

Bakıda keçirilmiş mötəbər beynəlxalq yarışlar bütün dünyanın diqqətini cəlb edir. Onu da qeyd etməliyəm ki, bu il ikinci dəfə olaraq Bakıda Formula-1 yarışı keçirilmişdir. Ümumi rəyə görə, - bu, artıq xarici mətbuatda da qeyd olunub, - 20 yarışın arasında bu yarışlar ilin ən yaxşı yarışı hesab olunub. Yəni, bu da bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bir çox Formula-1 yarışlarından fərqli olaraq bizim yarışımız şəhər yarışıdır və bu, eyni zamanda, bütün dünyaya - yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə Formula-1 yarışı deyil, Azərbaycanda gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir otellər, viza rejiminin sadələşdirilməsidir. Eyni zamanda, hesab edirəm ki, Formula-1 ölkəmizin təbliğatı üçün nadir bir yarışdır. Yəni, beş yüz milyon tamaşaçı bu yarışı müntəzəm olaraq izləyir və bir daha demək istəyirəm ki, Bakının gözəlliyini, Azərbaycanın qüdrətini görür.

Beləliklə, təkcə sadaladığım bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman dövlətidir. Əminəm ki, idmançılarımız bundan sonra da bizi qələbələrlə sevindirəcəklər. Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir, dövlət siyasəti aparılır, idmanın maddi-texniki bazası möhkəmləndirilir. Bakının idman qurğuları dünyanın ən yüksək standartlarına cavab verir. Bölgələrdə də Olimpiya İdman mərkəzlərinin tikintisi davam etdirilir. Bu il Abşeron və Ağcabədi rayonlarında iki gözəl Olimpiya İdman Mərkəzi yaradılmışdır. Gələn il dövlət büdcəsində



bölgələrdə üç mərkəzin tikintisi nəzərdə tutulur. Onlardan biri istifadəyə veriləcək, ikisində isə tikinti gedəcək. Ondan sonrakı illərdə də biz bu siyasəti davam etdirəcəyik. Bu günə qədər bölgələrdə 43 Olimpiya İdman mərkəzi yaradılmışdır ki, bunlar gənclər, idmançılar, rayon sakinləri üçün çox gözəl imkanlar yaradır.

Əlbəttə, bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Əminəm ki, idmançılarımız bizi beynəlxalq yarışlarda bundan sonra da sevindirəcəklər. Bütün bu uğurların səbəbləri aydındır. İdmana dövlət dəstəyi, idmançılarımıza qayğı göstərilir. İdmanla məşğul olan bütün qurumlar - Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vurur. Yəni, bizim məqsədimiz Azərbaycanda idmanın inkişaf etdirilməsidir, Azərbaycanın dünyada güclü idman dövləti kimi tanıtdırılmasıdır və idmanın kütləviliyinin təmin olunmasıdır. Regional Olimpiya mərkəzlərinin tikintisinin səbəbi də məhz budur ki, idman kütləvi xarakter alsın.

Mən hər zaman idmançılarla görüşəndə qeyd edirəm ki, hər bir insan idmanla məşğul olmalıdır. Fiziki sağlamlıq hər bir insan üçün çox önəmlidir. Biz son illər ərzində bu istiqamətdə bir çox vəzifələri icra etdik. Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilmişdir. Dövlət tərəfindən təşkil olunan dispanserizasiya, müayinədənkeçmə işləri aparılır. Hər il beş milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Ekoloji vəziyyət yaxşılaşır, təmiz içməli su layihələrinin icrası geniş vüsət almışdır. Əlbəttə ki, fiziki hərəkət sağlamlıq üçün əsas amillərdən biridir. İdmanın kütləviliyi idman nəticələri əldə etmək üçün yox, sadəcə olaraq, ona görə vacibdir ki, hər bir insan özünü yaxşı hiss etsin.

Mən şadam ki, gənc idmançılarımız da bizi qələbələrlə sevindirirlər. Yeniyetmə, uşaq idmanı olmadan idman uğurlarından danışmaq mümkün deyil. Gənc nəsil də yetişir, artıq yarışlara çıxır, qələbələr qazanır və beləliklə, idman uğurlarımızın ardıcıllığı təmin olunur. Əgər biz iştirak etdiyimiz bütün Yay Olimpiya Oyunlarının nəticələrinə fikir versək görərik ki, hər dəfə daha böyük sayda medallar qazanırıq. Yəni, idmançıların hazırlığı, gənclərin, yeniyetmələrin idman bölmələrinə gəlmələri bu nəticəni təmin edir. Son Rio Yay Olimpiya Oyunlarında Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü yerə qalxmışdır. Bu, tarixi qələbədir. Bu qələbəni bir neçə il bundan əvvəl təsəvvür belə etmək mümkün deyildi. Bu qələbəni biz cəmi 25 il ərzində qazanmışıq. Müstəqilliyimizin 25 illiyinə təsadüf edən Rio Olimpiya Oyunlarında biz belə böyük qələbəni qazanmışıq və müstəqilliyimizə bunun çox böyük töhfəsi olmuşdur. Azərbaycan xalqı bir daha bütün dünyaya göstərdi ki, Azərbaycanda idman yüksək səviyyədədir. Əgər idman nəticələrinə fikir versək görərik ki, əksər hallarda idman ancaq inkişaf etmiş ölkələrdə sürətlə inkişaf edir. Çünki idmanın inkişafı üçün böyük vəsait lazımdır.

Ona görə idmanın inkişafı inkişafımızın ümumi kontekstində mühüm yer tutur. Azərbaycan hər bir istiqamət üzrə son illər ərzində uğurlu inkişaf yolu keçmişdir. Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi, əlbəttə ki, bizim ümumi uğurlarımıza şərait yaradır. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə, gənc idmançılarda da ruh yüksəkliyi yaradır. Onlar da görkəmli çempionlar kimi olmaq, böyük uğurlar qazanmaq, öz bayrağını qaldırmaq istəyirlər və istəyirlər ki, xalq onları da tanısın və onlara da hörmət etsin.

Ona görə bu gün idmana sadəcə olaraq bir sahə kimi baxmaq mümkün deyil. İdman hər bir ölkənin ictimai həyatında çox böyük rol oynayır. Təsadüfi deyil ki, ölkələr çalışırlar beynəlxalq yarışlarda, dünya çempionatlarında, xüsusilə Olimpiya oyunlarında daha yüksək yer tutsunlar. Çünki bu, ölkələrə daha böyük şöhrət gətirir. Əgər İslam Həmrəyliyi Oyunlarının tarixçəsinə nəzər salsaq görərik ki, nə qədər gərgin mübarizə getmişdir. Eyni zamanda, Avropa Oyunlarında da gərgin mübarizə getmişdir. Əlbəttə ki, bu iki mötəbər yarışda birinci, ikinci yerləri tutmaq bizim tarixi qələbəmizdir.

İdmanın inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır. Bu il biz, eyni zamanda, Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd etdik. O tədbirdə də mən öz fikirlərimi bildirdim. Bundan sonra da Azərbaycan dövləti idmançılara öz qayğısını əsirgəməyəcək, idmanın inkişafı üçün nə lazımdırsa biz onu da edəcəyik. İdmançılara isə yeni qələbələr, yeni uğurlar arzulayırıq.

Mən bu fürsətdən istifadə edərək, - biz hər ilin sonunda görüşürük, - bütün idmançıları qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik etmək istəyirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

# Ordu ilə ictimaiyyətin əlaqələri genişlənir

Ölkə mediasının verdiyi xəbərə görə, "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" qanun layihəsinin Milli Məclisdə müzakirəsi zamanı orduya parlament və ya qeyri-hökumət təşkilatlarının nəzarəti, eləcə də media və ordu münasibətləri haqqında sorğuya cavab olaraq Müdafiə Nazirliyi Mətbuat Xidmətindən bildirilir ki, cari il ərzində Milli Məclisin deputatları, rayon icra hakimiyyətləri, dövlət, yerli və xarici qeyri-hökumət təşkilatları və ictimai qurumlarla birlikdə hərbi hissələrdə müxtəlif məzmunlu 67 tədbir və layihə həyata keçirilib.

Həmçinin Müdafiə Nazirliyinin müxtəlif qurumlarla birgə təşkilatçılığı ilə ölkənin rayon və şəhərlərində 40-dan artıq hərbi-vətənpərvərlik mövzusunda mədəni-kütləvi tədbir təşkil edilib.

Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Hərbi Prokurorluq, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi arasında imzalanmış 2017-ci il üçün birgə fəaliyyət planına uyğun olaraq hərbi hissələrə 15 dəfə səfərlər təşkil olunaraq şəxsi heyətlə müxtəlif səpgili görüşlər keçirilib.

Bundan əlavə, 2017-ci ildə Hesablama Palatası tərəfindən Müdafiə Nazirliyinin müxtəlif fəaliyyət sahələri üzrə təfərrüatlı yoxlanılması da həyata keçirilib.

Cari ilin 11 ayı ərzində ölkə mediasında təbliğ olunmaq məqsədilə Müdafiə Nazirliyi tərəfindən 1152 məlumat, 763 foto və 119 video material hazırlanaraq kütləvi informasiya vasitələrinə ötürülüb, jurnalistlərin 124 sorğusu cavablandırılıb. Çəkilişlər aparılmasına 67 icazə məktubu verilib, keçirilən tədbirlərin işıqlandırılması üçün televiziya kanalları və aparıcı informasiya agentlikləri 70 dəfə tədbirlərə dəvət olunub.

Artıq üçüncü ildir ki, cəbhəboyu zonada yerləşən hərbi hissələrdə Müdafiə Nazirliyi ilə "Dinc Dünya" araşdırma mərkəzinin "Savaş jurnalistikası təlimləri" adlı birgə layihəsi keçirilir ki, buraya da yüzlərlə media nümayəndəsi cəlb olunur.

Nazirlər Kabinetinin 14 avqust 2015-ci il qərarının icrası ilə əlaqədar 50-dən çox yerli və xarici media nümayəndəsi Müdafiə Nazirliyində akkreditə olunub.

Müdafiə nazirinin təşəbbüsü ilə il ərzində bütün hərbi hissələrdə 3 dəfə ənənəvi "Açıq qapı günü" keçirilib. Bu ayın sonlarında növbəti "Açıq qapı günü"nün keçirilməsi planlaşdırılır. Qeyd etmək lazımdır ki, şəffaf şəraitdə keçirilən bu tədbirlərdə həm ictimaiyyətin, həm də media nümayəndələrinin iştirakına geniş imkanlar yaradılır.

**"Azərbaycan Ordusu"**

# Ordu quruculuğunu daha da inkişaf etdirmək daim dövlətimizin diqqət mərkəzindədir

## Taktiki təlim şəhərciyinin yeni idarəetmə məntəqəsi açılıb

*Artıq 2017-ci ilin başa çatmasına az müddət qalıb. İlin yekunlarına diqqət yetirəndə aydın olur ki, Azərbaycanın bütün sahələrində olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm işlər görülüb. Hələ 2003-cü ildə ölkəmizdə rəhbərliyə gəldiyi zaman Prezident, Ali Baş Komandan İlham Əliyev siyasi kursunun ən başlıca istiqamətlərini bəyan edərkən əsası ümummilli liderimiz tərəfindən yaradılan Azərbaycan Silahlı Qüvvələrinin müasir səviyyədə inkişaf etdiriləcəyini vurğulamışdı. Məhz həmin vaxtdan etibarən ordu quruculuğu siyasəti ölkəmizdə əsas prioritetlərdən birinə çevrilib.*





Bu yaxınlarda dövlətimizin başçısı cəbhə xəttinə yaxın rayonlardan birinə səfəri zamanı müasir hərbi hissənin açılış mərasimində iştirak etdi. Burada hərbi qulluqçular üçün yaradılan şəraitdən məmnun qalan Prezident İlham Əliyev qeyd etdi ki, biz bu hərbi hissənin timsalında ordumuzda yaradılan yüksək şəraitin şahidi oluruq və bu şərait də öz növbəsində Azərbaycan Silahlı Qüvvələrinin hər zaman öz döyüş ruhunu qorumasına imkan verir. "Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüş Azərbaycan Ordusunda yüksək mənəvi hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Ümumiyyətlə aprel döyüşləri münaqişənin həlli dövründə dönüş məqamı idi. Bütün Azərbaycan cəmiyyətində ruh yüksəkliyinə səbəb olan bu hadisələr bir daha göstərdi ki, xalqımız torpaqlarımızın itirilməsi ilə barışmayıb və heç vaxt da barışmayacaq."

Əslində ötən ilin aprel savaşı Azərbaycanın ordu quruculuğuna, dövlət rəhbərliyinin böyük qayğısının parlaq nümunəsi oldu. Dövlətin hərtərəfli qayğısından ruhlanan hərbi qulluqçular yüksək döyüş əzmi nümayiş etdirdilər. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbirincə, ordu quruculuğunda qazanılan uğurlar dövlət və xalqın bu sahəyə verdiyi diqqətin gerçək nəticələridir. Doğrudan belədir, elə bir dövlət tədbiri olmaz ki, Prezident İlham Əliyev orada çıxış edərkən ordu quruculuğu məsələsinə toxunmasın. Ordumuzda döyüş və mənəvi-psixoloji hazırlığın artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq bu gün hərbi qulluqçuların vətənpərvərlik ruhu yüksəkdir. Bununla da xalqımızın güvənc yeri, qürur və ləyaqət rəmzi olan Azərbaycan Ordusu yeni zəfərlər qazanmağa, aprel döyüşlərində qazanılan qələbəni davam etdirməyə qadirdir.

2017-ci il ərzində də Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrimizdə bütün qoşun növlərinin təmsil olunduğu genişmiqyaslı təlimlər keçirildi. Belə təlimlərin ardıcıl keçirilməsi həm ordunun balansında olan müasir silah və texnikaların nümayiş etdirilməsi, həm də şəxsi heyətin döyüş vərdişlərinin təkmilləşdirilməsi baxımından olduqca əhəmiyyətlidir. Qarabağ müharibəsinin ilk dönəmində ordumuzda baş verən uğursuzluqların əsas səbəblərindən biri məhz hərbi bölmələrin təlim keçmədən döyüşlərə cəlb edilməsi idi. Heç kimə sirr deyil ki, real döyüş səhnələrini əks etdirən təlimlər hərbi qulluqçularda özünəinam, qorxmazlıq, əzmkarlıq kimi vacib mənəvi keyfiyyətlər aşılayır. Əbəs yerə deyil ki, dünya hərb elminin yaradıcıları daim təlimlərə böyük əhəmiyyət verib və təlim meydanında qazanılan uğurları qələbənin rəhni biliblər. Bu vacib məsələyə diqqət ayıran Azərbaycanın ordu rəhbərliyi də ordumuzun arsenalına daxil edilən müasir silah-sursat və texnikaların döyüş vərdişlərinin şəxsi heyətə öyrədilməsinə və bu məqsədlə təlim obyektlərində vacib strukturların yaradılmasına ciddi əhəmiyyət verir.

Buna görə də hazırda Müdafiə Nazirliyinin həyata keçirdiyi islahatlar çərçivəsində təlim mərkəzlərinin yenidən qurulması, müasir döyüşün tələblərinə uyğunlaşdırılması üçün ardıcıl işlər görülür. Ölkə mediasının bu günlərdə yayımladığı məlumatlardan birində göstərildiyi kimi, ötən həftə Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni inşa edilmiş taktiki təlim şəhərciyinin yeni idarəetmə məntəqəsinin açılışında iştirak edib. İdarəetmə məntəqəsi haqqında ordu rəhbərliyinə məruzə edilərək bildirilib ki, burada təlimlərə cəlb ediləcək şəxsi heyətin yerləşdirilməsi üçün müvafiq infrastruktur yaradılıb.



Real döyüş şəraitinə uyğun inşa edilən təlim sahəsində atəş çalışmaları, müxtəlif döyüş və xüsusi texnikanın mürəkkəb relyef və hava şəraitində idarə olunması üzrə praktiki vərdişlərin təkmilləşdirilməsi məqsədilə məşğələlərin keçirilməsi, döyüş tapşırıqlarının tədris və praktiki məşq etdirilməsi nəzərdə tutulub.

Təlim mərkəzinin açılış tədbirində Silahlı Qüvvələrimizin Hərbi Akademiyası ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında elmi-texniki və təhsil sahəsində əməkdaşlığa dair imzalanmış memorandum çərçivəsində birgə hazırlanmış müxtəlif döyüş vasitələri və texniki avadanlıq nümunələri Müdafiə nazirinə təqdim olunub, onların döyüş imkanları nümayiş etdirilib.

Göründüyü kimi, dövlət rəhbərinin göstərişləri əsasında ordumuzda həyata keçirilən bütün yenidənqurma işləri şəxsi heyətin döyüş səriştəsinin artırılması cəhətdən vacibdir və belə tədbirlərin ardıcıl davam etdirilməsi Müdafiə Nazirliyinin döyüş hazırlığı planında əsas yer tutur.

Müxtəlif hərbi bölmələrdə davam edən təlimlərdə şəxsi heyətin döyüş bacarıqları nümayiş etdirilir və ən nümunəvi tabor, divizion komandirləri, ən nümunəvi heyətlər fərqləndirilir. "Vətənə, dövlətə və xalqa xidmət ömrümüzün mənasıdır" devizi ilə keçirilən belə tədbirlərdə zabit və gizirlər, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları və əsgərlər böyük həvəslə iştirak edirlər. Sonda qaliblər komandanlıqlar tərəfindən mükafatlara layiq görülür. İl ərzində keçirilən belə tədbirlərin nəticələri vaxtaşırı qəzetimizin səhifələrində də işıqlandırılır və qaliblər haqqında yazılar dərc olunur. Təcrübələr göstərir ki, belə tədbirlər şəxsi heyətə daim xoş ovqat, yeni ruh yüksəkliyi aşılayır və növbəti uğurların qazanılmasına zəmin yaradır. Əlbəttə, əsl döyüş yarışması şəraitində keçirilən bu tədbirlər nəticə etibarı ilə ordumuzun hərbi gücünü daha da artırır və xalqımız əmin olur ki, torpaqlarımız sülh yolu ilə işğaldan azad edilmədiyi təqdirdə Azərbaycan əsgəri düşmənə öz qətiyyətini göstərəcəkdir.

**"Azərbaycan Ordusu", fotolar Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyində ilin yekunlarına dair geniş kollegiya iclası keçirilib

*Dekabrın 16-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə 2017-ci tədris ilində qoşunların hazırlığı üzrə yekunlara dair geniş tərkibdə iclas keçirilib.*





Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov iştirak edib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzə dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti, xidməti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2017-ci ildə xidməti döyüş hazırlığının yekunları və 2018-ci tədris ilində qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən Müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində əldə edilən nailiyyətlərdən danışıb.

General-polkovnik Z.Həsənov cari ildə görülən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2018-ci tədris ilində qarşıda duran əsas vəzifələrin icrası ilə əlaqədar komandir-rəis heyəti qarşısında tapşırıqlar qoyub.

Müdafiə nazirinin əmrinə əsasən, 2017-ci tədris ilində döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçular təltif edilib və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

---

## Yeni nəşrlər

*Ordu ilə cəmiyyətin əlaqələri genişlənir. Bu əlaqələr Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən hər tədbirlə daha da möhkəmlənir. 2017-ci ildə 40-dan çox belə tədbir keçirilib.*




Qazaxda keçirilən "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kütləvi vətənpərvərlik bayramı təsdiq edir ki, ordu ilə cəmiyyət arasında heç bir maneə yoxdur. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq keçirilən bütün kütləvi vətənpərvərlik tədbirlərinin mahiyyəti, keçirildiyi məkan, iştirakçıların tərkibi və sayı, ordu ilə cəmiyyət arasında münasibətlərin könül xoşluğu olan səmimiyyətinin, ehtiramının təsdiqidi. Noyabrın 14-də Qazaxda Əməkdar İncəsənət xadimi, şair-publisist Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla keçirilən "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kütləvi vətənpərvərlik bayramı da ordu ilə xalqın birliyinin təsdiqi idi. On beş mindən çox iştirakçı "Ordumuz-qürurumuzdu" - deyirdi, "Xalqımız-dayağımız" - deyirdi...

Abdulla Qurbaninin tədbirlərə həsr etdiyi "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kitab-albomu təsdiqləyir ki, tədbirin mahiyyətinin açılmasında ssenarini tamamlayan, sözün ifadə etdiyi mətləbi açan rejissura yüksək səviyyədə olub. Bir foto diqqəti çəkir: azyaşlı uşaqlar hərbi səhra paltarında, əllərində Azərbaycanın dövlət bayrağı dalğalanır. Bu, xələf-sələf münasibəti kimi də, azyaşlıların vətənpərvər yeniyetmə, vətənpərvər gənc kimi formalaşacağına inam kimi də qəbul edilməlidir; hər biri Azərbaycanın sabahkı əsgəridi, hər birinin düşüncələri indidən Vətənə, torpağa istiqamətləndirilir. Belə möhtəşəm tədbirin azərbaycançılığa sevgi, dövlətə, dövlətçiliyə sədaqət olduğunu görürsən, ürəyin dağa dönür...

Bir ana kövrəlib. Nələri xatırlayır ana? Nələrin xiffətidi yanaqlarını yandıran göz yaşları? Bu qəhər təkcə oğul itkisi deyil. Bu, həm də tədbirdə gördüklərindən, duyduqlarını oğul itkisinə təsəlli bilən ananın göz yaşlarıdı. "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" tədbiri həm də bu baxımdan dəyərli tədbir olub, şübhəsiz...

Milli-xəlqi ruhu yaşatmaq, əslində, vətənpərvərlikdi. Belə bir tədbirdə xalq şairi Səməd Vurğunun, general Əliağa Şıxlinskinin, İbrahim Ağa Vəkilovun, Fərrux Ağa Qayıbovun,.. ruhunun qazaxlılara, Vətəni Qazaxda qoruyanlara xeyirduasını eşidənlərin qüruru seziləndi. Kitab-albomda təqdim edilən yaşanılmış anların - şəkillərin zəmanətiylə bu qənaətə gəlirik, ssenarini oxuduqca, tədbirdə iştirak edənlərdən bir neçə nəfərin təəssüratlarıyla tanış olduqca bu qənaətin dönməzliyinə özün də inanırsan, digərlərini də inandırmaq istəyirsən - belə bir tədbirin mahiyyətinə ehtiram kimi...

Sərbəst güləş üzrə böyüklərdən ibarət Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudovun bir bədii sualı düşündürücüdü: "Qazax rayonunda keçirilən bu tədbirdə ordu ilə xalqın birliyini görən düşmənlərimiz nə düşünürlər? "Aprel döyüşlərindən sonra düşündüklərini, onları daha ağır məğlubiyyətlər gözlədiyini, işğalın sonu ərəfəsində olduqlarını; "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kitab-albomu bu mətləblərin kitabıdı və Azərbaycan əsgərinin məmləkətimizə Böyük Qələbənin sevincini yaşadacağına inamdı. Azərbaycan beynəlxalq radiosunun şöbə müdiri, BDU-nun müəllimi Natəvan Dəmirçioğlunun Ali Baş Komandana istinadən dediklərini də bu fikirlərin davamı bilirəm: "Sülh danışıqları nəticə verməsə, Ermənistan təxribatlarını dayandırmasa, Azərbaycanın münaqişəni hərb yolu ilə həll edəcəyi qaçılmazdır" fikri şüar deyil, reallıqdır və potensial imkanlara dayaqlanır. Bu kütləvi bayramda xalq, dövlət, ordu birliyi bu inamı bir daha nümayiş etdirdi" - vətəndaş mövqeyindən ziyalı təxəyyülü ilə deyilmiş bu fikirlər oxucuya nə qədər gözəl könül xoşluğu yaşadır!

Azərbaycan Yazıçılar Birliyinin Qazax rayon filialının sədri, Əməkdar incəsənət xadimi, şair-publisist Barat Vüsalın bir fikrini kitab-albomun, kitab-albomun timsalında tədbirin mahiyyəti, qayəsi kimi oxuyuram: "...bu möhtəşəm qürur bayramında hər bir tamaşaçının özü də bir əsgərdi və hər bir iştirakçı əsgərin özü də bir tamaşaçıdı". Ordu ilə xalqın birliyinin, bu birliyin dönməzliyinin söz təsvirini beləcə tarixləşdirir "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kitab-albomu...

"Qazax - xidmət etdiyin diyar" kitab albomu kimi bu kitab-albom da tarix haqqında tarixi kitabdı; bu kitab-albom da deyir ki, əsgər üçün xidmət etdiyi rayon Vətənin bir parçasıdı, əsgər ona tapşırılan mövqedə döyüş növbətçiliyi aparır - Vətəni qoruyur. Bu kitab-albom Vətəni Qazaxda qoruyanlara sevginin kitabıdı, ordusuyla qürurlananların kitabıdı - vətənpərvərlərin kitabıdı, vətənpərvərlik kitabıdı...

Bu kitab-albom həm də Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun qazaxlılara və Qazaxın müdafiəçilərinə Yeni il hədiyyəsidi...

..."Ordumuz-qürurumuz, xalqımız-dayağımız" kütləvi vətənpərvərlik bayramı da təsdiqlədi ki, ordu ilə xalqın birliyi dönməzdi...

**Rəşid HÜSEYNOV, əməkdar jurnalist**

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Ən yaxşı artilleriya divizionu"

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Silahlı Qüvvələrdə "Ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilib. Yarışların əsas məqsədi şəxsi heyətin döyüş ustalığını artırmaqla yanaşı, ixtisas, taktiki, atəş və fiziki hazırlığını, nəzəri və praktiki vərdişlərini, döyüş zamanı onların uzlaşma və idarəetmə qabiliyyətlərini formalaşdırmaqdır.*



"Silahlı Qüvvələrin ən yaxşı artilleriya divizionu" adı uğrunda keçirilən yarışın nəticələrini öyrənmək və şəxsi heyətin təəssüratlarını bölüşmək məqsədilə hərbi hissələrimizdən birində olduq. Burada kapitan Azad Cəfərov bildirdi ki, yarış fərqli məkanlarda ayrı-ayrı ixtisaslar üzrə divizionlar və bölmələr arasında keçirilib.

"Ölkə rəhbərliyi tərəfindən orduya göstərilən diqqət və qayğı, qoşunlarımızın maddi-texniki təminatı döyüş hazırlığının daha da yüksəldilməsinə səbəb olub. Şəxsi heyətimizin çəkdiyi zəhmətin nəticəsidir ki, şəxsi heyətimiz "Silahlı Qüvvələrin ən yaxşı özüyeriyən artilleriya divizionu" adı uğrunda keçirilən yarışda ən yüksək nəticə əldə edib."

Öyrənirik ki, yarış üç mərhələdə həyata keçirilib. İlk olaraq divizionun zabit heyəti kompüterli artilleriya sinfində toplanır. Divizion komandiri atəşin idarə edilməsi üzrə yarışın başlandığını elan edir. Zabit heyəti məruzəni qəbul etdikdən sonra, onların nəzəri bilik səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi məqsədilə imtahan biletləri paylanır və bilik səviyyələri yoxlanılır.

- Şəxsi heyətimizin yarışda qalib olması təsadüfi deyil, - deyə kapitan Rəşad Məmmədov bizimlə söhbətə başlayır. Bir zabit, bir vətəndaş kimi 20 faiz torpaqlarımızın işğalda olması, dövlətimizin ərazi bütövlüyünün pozulması ilə barışa bilmərik. Ermənistanla olan müharibə vəziyyəti hər an torpaqlarımızın güc yolu ilə azad olunması reallığını ortaya qoyur. Ona görə də yüksək səviyyədə hazırlıqlı olmağımız vacibdir.



Baş leytenant Məmməd Məmmədov söhbətə müdaxilə edərək bildirdi ki, divizonumuzda xidmət edən zabitlərin əksəriyyəti ali hərbi təhsili fərqlənmə ilə bitirən zabitlərdir. bacarıqlarını ortaya qoymağı bacardılar və bu il keçirilən yarışın birincisi oldular. Hər zaman şəxsi heyətimizin döyüş ustalığının artırılması üçün əlimizdən gələni əsirgəmirik. Növbəti yarışlarda da birinci olmağa iddialıyıq.

Kapitan Rüstəm Muradov isə bildirdi ki, yarışın qalibi olmaq üçün döyüş hazırlığı ilə paralel, şəxsi heyətin mənəvi-psixoloji durumu da diqqətdə saxlanılır. Yüksək mənəvi dəyərlər ruhunda formalaşdırılan şəxsi heyət Vətəni qorumağa qadirdi.

Şəxsi heyətə sıra baxışının keçirilməsi və tədris-material bazasının yoxlanılması ilə ikinci mərhələ başlayır. Bunun üçün divizionun texnikası atəş mövqeyi rayonundan bir qədər kənarda kolona düzülür, şəxsi heyət sıraya cəlb edilir və tədris-material bazası təqdim olunur. Tədris-material bazası, şəxsi heyətin ekipirovkası yoxlanıldıqdan və qeydlər aparıldıqdan sonra özüyeriyən artilleriya divizion komandirinin marş əmri şəxsi heyətə çatdırılır və hər kəs təhlükəsizlik qaydaları ilə təlimatlandırılır. Müvafiq sənədlər yoxlandıqdan sonra divizion komandiri tərəfindən atəş mövqeyi və komanda müşahidə məntəqələri rayonlarına çıxmağa icazə verilir. Marşın həyata keçirilməsi və saxlancdan döyüş tapşırığı yerinə yetiriləcək rayona hərəkət etmək üçün şəxsi heyət düzülür. Divizion komandiri tərəfindən "daimi dislokasiya mövqeyini tərk etməyə başlayın" komandasını alan şəxsi heyət maşınlarda öz yerini tutur. Kapitan Azad Cəfərov bildirir ki, ilk növbədə əsas diqqət əvvəlcədən hazırlanan atəş mövqeyinin və komanda müşahidə məntəqələrinin vaxtında və dəqiq şəkildə tutulmasına, fərdi və qrup normativlərinin yerinə yetirilməsinə yönəlir.

"Döyüşə!" komandası ilə marşın icra olunması prosesi başlanır. Bu komandadan sonra şəxsi heyət atəş mövqeyində və komanda müşahidə məntəqəsində öz yerini tutur.

Hər bir heyət dərhal əmri yerinə yetirməyə başlayır və müasir özüyeriyən qurğu bir neçə saniyə ərzində döyüşə hazır vəziyyətə gətirilir. Qurğunun komandiri dərhal bayrağı qaldırıb heyətin döyüşə hazır olduğunu bildirir.

- Bundan sonra planlı hədəflərə atəş tapşırıqları yerinə yetiriləcək", - deyə baş leytenant İgid Məmmədov söhbətə başlayır. Şəxsi heyət divizion komandirinin planlı hədəflərə atəş tapşırıqlarının yerinə yetirilməsi əmrini gözləyir. Bu əmr yerinə yetirildikdən sonra üç atəş tapşırığı ilə plandankənar hədəflərə də atəş tapşırığı yerinə yetiriləcək.

- Zabitlə birlikdə atəş tapşırıqlarının yerinə yetirilməsi prosesini izləyirik.

- Gördüyünüz nailiyyət məşğələlərdə ixtisas, taktiki və atış bacarıqlarını daim artırmağımızın nəticəsidir - deyə baş leytenant söhbətə davam edir. Bu məşğələlərdə texnikanın taktiki-texniki xüsusiyyətlərini öyrənir, təcrübəmizi daha da artırırıq. Gördüyünüz texnika ən müasir texnologiya ilə, avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz edilib. Hazırlıqlı olmayan, texnikanı mükəmməl bilməyən əsgərlə nailiyyət əldə oluna bilməz. Vətəni qorumağın şərəfli peşə sayıldığını, dövlətimizə xidmət etməyin müqəddəs borc olduğunu bilən əsgərlərimizin düşmənə nifrəti böyükdür.

Gizir Vüsal Yunisov da söhbətimizə qoşularaq bildirir ki, istənilən hərbi qulluqçu ümumi uğurumuz naminə bilik və bacarığını əsirgəmir. "Özünüz də gördünüz ki, vahid mexanizm kimi hərəkət etməyimizin, əldə etdiyimiz biliklərin sayəsində nəzərdə tutulan normativləri vaxtında və yüksək dəqiqliklə həyata keçiririk. Bu yarışlar və təlimlər imkan verir ki, Azərbaycan əsgəri özünü əsl döyüş meydanında hiss etsin. Belə yarışlar həm də şəxsi heyətə özünəinam aşılayır. Hamı başa düşür ki, təlim meydanında çəkilən zəhmət döyüş meydanında qələbəyə nail olmağa imkan yaradır.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Həsən Qarayev isə bildirdi ki, təlimdə ötən ilin aprel döyüşlərində oğullarımızın nümayiş etdirdiyi qəhrəmanlıqları bir daha təkrar etmək, xalqımızı sevincə qərq etmək, bayrağımızı doğma torpaqlarımızda dalğalandırmaq istəyindəyik. "Aprel döyüşləri sübut etdi ki, Azərbaycan Ordusunun gücü, qüdrəti, şəxsi heyətimizin peşəkarlığı ən yüksək səviyyədədir. Bu gün ordumuzda olan yüksək peşəkarlıq, ciddi nizam-intizam, yetərli maddi-texniki baza, şəxsi heyətin ruh yüksəkliyi, doğrudan da ordumuzun yeni zəfərlər qazanacağına təminatdır."

Füzuli rayonundan hərbi xidmətə çağırılan əsgər İxtiyar İsayev söhbət zamanı Azərbaycan Ordusunda xidmət etdiyindən və xalqımıza məxsus hərbi ənənələri şərəflə davam etdirdiyindən qürur duyduğunu bildirdi. "Artilleriya haqqında, xüsusilə müasir tələblərə cavab verən özüyeriyən qurğu haqqında heç bir anlayışım yox idi. İndi isə təcrübəli zabitlərimizin, gizirlərimizin və əsgərlərimizin sayəsində sərbəst şəkildə hədəfləri müəyyən etməyi və düşməni atəş altında saxlamağı bacarırıq."

- Bu gün əlimizdə olan müasir texnikaların köməyi ilə düşməni tamamilə məhv etməyə qadirik", - deyə əsgər Kənan Talıblı da öz fikirlərini bölüşür. 15 aylıq xidmətim hədər getməyib. İndi isə yeni gələn əsgərlərin öyrədilməsində yardımçı olmağa çalışıram. Bilirik ki, Azərbaycan əsgəri istənilən döyüş məqamına hazır olmalıdı. Biz həmin döyüş anını yaşamağa hər zaman hazırıq.

Əsgər Fərrux Rzayev isə dostunun söhbətini yarımçıq qoyub bildirdi ki, ancaq bir məsələ haqqında düşünürük: "Gözlədiyimiz döyüş məqamı nə vaxt gəlib çatacaq. Nə vaxt bu texnikanın köməyi ilə haqqımız, halalımız olan o torpaqlara ayaq basacağıq.

Qısa fasilədən sonra komanda müşahidə məntəqələrinin yerdəyişməsi prosesi başlayır. Bu zaman maskalanma və gizli fəaliyyət qaydalarına da əməl olunur. Atəş tapşırığı yerinə yetirilir. Bununla paralel olaraq kəşfiyyatın təşkili prosesi də aparılır və s.

Bu mərhələnin sonunda idarəetməni batareya komandirlərindən birinə ötürməklə atəş tapşırığının yerinə yetirilməsi prosesini izləyirik. Kapitan Azad Cəfərov bildirir ki, bu mərhələnin əsas məqsədi düşmənin əks-hemlələrinin qarşısını vaxtında almaqdır.

Sonuncu mərhələdə divizion komandiri yarışın başa çatması, atəş mövqelərinin və komanda müşahidə məntəqələrinin yığışması və təyin olunmuş yerdə şəxsi heyətin düzülməsi barədə komanda verir. Divizionun şəxsi heyəti atəş mövqelərini və komanda müşahidə məntəqələrini tərk edərək, sıraya düzüldükdən sonra yarışa yekun vurulur.

**Kapitan**
**Məhəmməd ƏLİYEV**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# “Ən yaxşı motoatıcı tabor komandiri”

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Silahlı Qüvvələrimiz üzrə ən yaxşı tabor komandiri adı uğrunda yarış keçirilib. Birinci yerin sahibi olan zabitlə görüşmək üçün "N" hərbi hissəsinə yola düşürəm.*



Öyrənirəm ki, zabitlərin hər biri müsabiqənin bütün mərhələlərində yüksək bilik və bacarıq nümayiş etdirərək yaxşı qiymətlər alıb. Onların nailiyyətləri bir daha göstərib ki, ordumuzun müasir silah və texnikası ilə yanaşı, onlardan ustalıqla istifadə etməyi bacaran savadlı zabitlərimiz var. Belə peşəkar zabitlər həm döyüş qabiliyyətini artırır, həm də ordumuza layiqli əsgərlərin formalaşmasında vacib rol oynayır. Əbəs yerə deməyiblər ki, komandir özü şəxsi nümunədir. Bu müsabiqədə komandirlərin bütün tapşırıqların öhdəsindən uğurla gəlməsi əminliklə deməyə əsas verir ki, onların tabeliyindəki şəxsi heyət yüksək səviyyədə xidmət edir və torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə atılmağa hər an hazırdır. Vətənpərvərliyi, qorxmazlığı ilə əsgərlərinə nümunə olan komandir, döyüş meydanında onları ruhlandırmağı da bacarır. Belə müsabiqələrdə, təlimlərdə şəxsi heyətin uğurlu nəticə göstərməsi bir daha sübut edir ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsində müəyyənləşdirdiyi siyasəti inamla və qətiyyətlə davam etdirən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlar nəticəsində beynəlxalq miqyasda tanınan ərazi bütövlüyümüzü, əhalinin əmin-amanlığını təmin etməyə qadir olan güclü ordumuz formalaşıb.

...Hər yarışın bir qalibi olduğu kimi, bu müsabiqədə də "ən yaxşı tabor komandiri" mayor Anar Mirzəyev seçilir. O, "N" hərbi hissəsinin motoatıcı tabor komandiri vəzifəsində xidmət edir. Onunla söhbətləşib, ilin ən yaxşı tabor komandiri adına layiq görüldüyü üçün təbrik etdik. Əslən İsmayıllı rayonunun Basqal kəndindən olan zabiti daha yaxından tanıyıram. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini motoatıcı ixtisası üzrə bitirib. İki dəfə Rumıniyada keçirilən NATO təlimlərinin iştirakçısı olub. Hələ kursant vaxtlarından nizam-intizamına və keçirilən dərslərdə yüksək bacarıq nümayiş etdirdiyinə görə dəfələrlə bölük birincisi olub. Bu günə qədər olan xidməti dövründə bir çox nailiyyətlər əldə edib. 26 İyun Silahlı Qüvvələr Günündə Ali Baş Komandanın imzaladığı fərmana əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunub. Bundan başqa 2016-cı ilin yekununa əsasən döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi yüksək nəticələrə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından fəxri fərmanla, qüsursuz xidmətlərinə görə I və II dərəcəli medallarla, Silahlı Qüvvələrin 90, 95 illik yubiley medalları ilə mükafatlandırılıb. İki övlad atası olan zabit "Əsas məqsədimiz Vətənə, millətə, dövlətə layiqli övlad olmaq, torpaqlarımızı işğaldan azad etməkdir" deyərək seçdiyi peşənin müqəddəsliyindən danışır:

- Bu peşəni öz istəyimlə seçmişəm. Vətənə olan bağlılığım, sevgim müqəddəs peşəni seçməyimə səbəb olub. Bu istəyi, sevgini də alovlandıran vətənpərvərlik hisslərimdir. Hər bir gəncimiz kimi mən də ailəmdə, təhsil aldığım məktəbdə vətənpərvərlik ruhunda formalaşmışam. Zabitlik çətin peşədir. Lakin qüruru, şərəfi daha yüksəkdir. Vətən keşiyində dayanmaq kimi şərəfli vəzifə yerinə yetirirsən. Xidməti zərurətlə ələqədar toy-bayramda qohumlarının, yaxınlarının arasında ola bilmirsən. Lakin o məclislərdə "Anar aramızda iştirak edə bilmir, Vətənimizi qoruyur, xidmətdədir" sözlərini eşitmək sevindiricidir. Düzdür, bütün peşələr şərəflidir, lakin hərbçi peşəsi hamısından şərəflidir, axı bu peşənin sahibləri Vətən torpaqlarını qoruyur.

Söhbətinə davam edən mayor A.Mirzəyev ordumuzda xidmət edən hər bir kəsə yüksək etimad bəsləndiyini vurğulayır. "Diqqət və qayğıları daim bizdən əsirgəməyən Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənov tez-tez hərbi hissələrdə bizimlə görüşür, qayğılarımızla maraqlanırlar. Belə diqqətin qarşılığında uğurlu xidmət etmək, göstərilən etimadı doğrultmaq hər birimizin borcudur", - zabit deyir.

Onun qətiyyətli sözlərindən, məğrur baxışlarından hərb peşəsinin incəliklərinə yaxşı bələd olan, seçdiyi yolda şərəflə, məsuliyyətlə xidmət edən bilikli, bacarıqlı zabit olduğu hiss olunur. O, Ümummilli Liderin "zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" sözlərinə sadiq olan, seçdiyi peşəni özünə həyat yolu bilən vətənpərvər oğullardandır.

Zabit Anar Mirzəyev sonda komandir keyfiyyətlərindən də söz açaraq gənc kursantlara öz tövsiyələrini bildirir:

- Hər bir gənc unutmamalıdır ki, torpaqlarımızın 20 faizi işğaldadır. Bizləri ancaq bir məsələ düşündürür - tezliklə doğma torpaqlarımızı işğaldan azad etmək. Hər birimiz mənəvi dəyərlərimizə sadiq, vətənpərvər olmalı, xidmətimizə məsuliyyətlə yanaşmalıyıq. Keçirilən dərslərdə, təlimlərdə fəal iştirak edib döyüş hazırlığımızı daha da artırmalıyıq. Komandir kimi tələbkar, qayğıkeş, səmimi olmağı, şəxsi heyətdə liderlik keyfiyyətləri qazanmağı özümə borc bilirəm. Tabeliyimizdəki əsgərləri döyüşə həm mənəvi, həm də taktiki cəhətdən hazırlamaq üçün bütün bilik və bacarıqlarımızı səfərbər etməliyik.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Qələbəyə gedən yol



*Bu gün torpaqlarımızın işğaldan azad edilməsi hər birimiz üçün əsas hədəfdir. Qələbənin təminatı isə hazırlıqlı zabit və gizirlərdən, əsgərlərdən bütün döyüş vasitələrinin hazırlığından asılıdır. Orduda etibarlı rabitə sistemi də mühüm əhəmiyyətə malikdir. Çünki müasir döyüşdə bölmələrin fasiləsiz, sabit, operativ və gizli idarə olunmasını təmin etmək məqsədilə komanda idarəetmə-məntəqələrinin rabitə vasitələri əsas rol oynayır.*

Bütün bunları nəzərə alaraq "N" hərbi hissəsində rabitə bölməsinin fəaliyyəti ilə yaxından tanış oluruq. Tanışlığımız radiorele stansiyasından başlayır. Gizir Rafiq Məhərrəmov şəxsi heyətə "Ştatda olan rabitə vasitələrinin quruluşu və istismarı" mövzusunda dərs keçir: "Müasir döyüşlərin qələbəsi radioelektron vasitələrlə təşkil edilən idarəetmənin etibarlılığından da çox asılıdır. Bunu nəzərə alaraq hər bir döyüşün hazırlanması və gedişi ərəfəsində müxtəlif üsullardan istifadə etməklə əks tərəfin idarəetməsini pozmaq mühüm amil kimi qəbul edilir. Nəticədə idarəetmə vasitələrinin düşmən təsirindən mühafizəsi sahəsində üstünlüyə nail olmaq uğrunda gərgin mübarizə yaranır. Bu mübarizədə rabitə sistemini qorumaq vacib sayılır. Bunun üçün imitasiya dayanıqlığı təşkil olunaraq yalan məlumatların rabitə sisteminə daxil olmasının qarşısı alınır və sistemin əks-dayanıqlılığı təmin edilir".

Dərs prosesindən sonra gizir Rafiq Məhərrəmovla söhbət etmək imkanı qazanırıq. Öyrənirik ki, həyatının 14 ilini hərbə bağlayan həmsöhbətim Şəkidə dünyaya göz açıb. Gizirin söhbətinə görə, son illərdə Azərbaycan Ordusunun rabitə bölmələri müasir tələblərə cavab verən yeni nəsil rəqəmsal rabitə vasitələri ilə təchiz olunub.

- Bu vasitələrin istismar xüsusiyyətlərinin mənimsənilməsi üçün rabitə üzrə mütəxəssislər - zabit və gizirlər müvafiq kurslara cəlb edilirlər, - gizir deyir. - Məqsəd isə tabelikdə olan şəxsi heyətin yüksək səviyyədə təcrübə qazanmasına imkan yaratmaqdır. Azərbaycan Ordusunun rabitə bölmələri arasında keçirilən yarışlarda ön sıralarda olmağımız şəxsi heyətimizin hazırlığından xəbər verir. Ancaq bu nailiyyətlər bizi arxayınlaşdırmır. Mütəmadi olaraq dərs, təlim və yarış proseslərinə cəlb olunuruq. Şəxsi heyətimiz inkişaf etmiş dünya ordularının nəzəri və praktiki bacarıqlarından müntəzəm olaraq faydalanır, müasir rabitə sistemini dərindən öyrənir və rəhbərliyin göstərişlərini məsuliyyətlə yerinə yetirir. İnanırıq ki, hazırlıqlı bölmələrin hesabına Qələbəyə tezliklə nail olmaq mümkün olacaq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Qəhrəmanın xatirəsinə həsr olunmuş şahmat turniri

*C.Naxçıvanski adına Hərbi Liseydə müntəzəm olaraq Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə həsr olunmuş idman yarışları keçirilir. Kursantlar bu yarışlarda həvəslə iştirak edərək daim fiziki hazırlıqlarını artırırlar. Bu günlərdə Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə şahmat turniri keçirildi.*



Tədbirdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın işğalçılardan qorunması uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Hərbi Liseyin fiziki hazırlıq bölməsinin müdiri Fərhad Əliyev çıxışında Milli Qəhrəman Elşad Əhədovun həyatı və döyüş yolu barədə geniş məlumat verdi.

Qeyd etdi ki, o, 4 mart 1968-ci ildə Masallı rayonunun Təzə Alvadı kəndində anadan olub və burada təhsil alıb. 1982-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub. Burada təhsilini başa vurandan sonra Ukraynanın Kamenets - Podolsk Ali Komandirlər Məktəbində oxuyub və Volqoqrad vilayətindəki hərbi hissələrdən birində xidmətə başlayıb. Gənc zabit bir müddətdən sonra doğma Vətənə dönüb.

Erməni qəsbkarlarının Azərbaycan torpaqlarına hücumu çoxları kimi onun da rahatlığını pozub. Elşad Əhədov komandir kimi qazandığı hərbi təcrübəni düşmənlə mübarizəyə sərf edib. Gənc zabitin döyüş yolu Füzuli istiqamətində başlanıb. Onun minaladığı sahədə 8 düşmən tankı və onlarla erməni yaraqlısı məhv edilib. Qəhrəmanın son döyüşü 11 dekabr 1993-cü il tarixinə təsadüf edir. Onun komandiri olduğu bölük sayca iki dəfədən artıq olan ermənilərin hücumunun qarşısını almaq üçün güclü müqavimət göstərir. Qeyri-bərabər döyüşdə Elşad ağır yaralanır. Həkimlərin ciddi səylərinə baxmayaraq komandirin həyatını xilas etmək mümkün olmur...

Ailəli idi. İki övladı yadigar qalıb.

Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 1993-cü il tarixli fərmanı ilə Əhədov Elşad Saday oğlu döyüşlərdə göstərdiyi şücaətə görə ölümündən sonra "Azərbaycan Bayrağı"ordeni ilə təltif edilir. Zabitin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və cəsarət bir ildən sonra daha da yüksək qiymətləndirilir - ona "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilir. Təzə Alvadı kəndində dəfn edilir. Bir vaxtlar təhsil aldığı orta məktəb indi qəhrəmanın adını daşıyır.

9 komandanın qatıldığı turnir başlanır və şahmat taxtası arxasında əyləşən kursantlar qalib gəlmək üçün daha çevik, daha "ağıllı" fəndlər tətbiq etməyə çalışırlar.

Bir neçə gün davam edəcək yarışda hər komandadan 3 əsas, bir ehtiyat oyunçu iştirak edir. Oyunda qalib gələn idmançıya 1 xal veriləcək, yarış heç-heçə başa çatanda isə xallar oyunçular arasında bölünəcək. Turnir beynəlxalq qaydalara uyğun olaraq dairəvi sistem üzrə keçirilir. Yarış həm komanda, həm də şəxsi xarakterlidir.

Sonda qaliblər Hərbi Liseyin rəhbərliyi tərəfindən mükafatlandırılacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Redaksiyamızın poçtundan*

# Bu məktub qələbəyə çağırışdı

Hər əsər oxuyanın düşüncələrinə təsir edə bilmir. Əslində, hər məktub da əsərdir və hər məktub da oxuyanı düşündürməyə qadir deyil.

Atam hərbçi olub. Körpəliyimdən hərbi mundir görmüşəm, hərbçilər haqqında söhbətlər eşitmişəm, atamın, atamın dostlarının müharibə, şəhidlik, şəhidlər haqqında danışdıqlarını qürurla, bəzən kövrəkliklə dinləmişəm. Atam döyüşlərdə tanıdığı qəhrəmanları indi də unutmur. Bunlar bir filoloq kimi mənim diqqətimdən yayınmır. Bir daha əmin oluram ki, Vətən üçün yaşayanlar hamımızın əzizimizdi. Onların vətənsevərliyi biz gənclər üçün böyük örnəkdir...

Hörmətli redaksiya!

Uşaqlığımdan bədii ədəbiyyata, jurnalistikaya böyük həvəsim olub. Müharibə mövzusunda yazılan əsərləri, "Azərbaycan Ordusu" qəzetində dərc edilən məqalələrin əksəriyyətini böyük həvəslə oxuyuram. Belə məqalələrin əsgərlərin düşüncələri üçün çox gərəkli olduğuna əminəm. Ara-sıra qəzetinizdə mənim də məqaləmi dərc edirdiniz və yeri gəlmişkən, sizə minnətdarlığımı bildirirəm.

Qəzetinizin 29 noyabr tarixli sayında dərc edilən "Əsgər oğluma məktub" məqaləsini də maraqla oxudum. Xalqımızın malik olduğu mənəvi keyfiyyətlətləri bu səviyyədə yaşadan Şərafət Muquzova kimi analarla mən də qürurlandım. Hər cümləsində Vətən olan, torpağın müqəddəsliyi, əsgərin Vətən qarşısında müqəddəs borcu xatırladılan bu məktubu qardaşıma yazılmış məktub kimi oxudum. Uşaqlığında "dava-dava" oynayanlar indi Vətəni qoruyur. Onların hər biri hər birimizin əzizidi. Şərafət ananın yazdığı "Vətəni anan kimi qoru, oğul" kəlmələri mənim də ürəyimi dağa döndərdi. Azərbaycanlı gənci kimi, Vətənini sevən vətəndaş kimi mən də əsgərlərimizə inanıram, güvənirəm. 2016-cı ilin aprel döyüşlərində qələbə qazanan Azərbaycan əsgəri Ali Baş Komandan əmr edərsə, torpaqlarımızı işğaldan döyüşlə azad edəcək. Şərafət ananın əsgər oğluna məktubu da bu inamla yazılıb. Əsgər oğullar analara, bacılara, ümumən xalqımıza qələbə ovqatı yaşadacaq!

Biz ordumuzla fəxr edirik. Fəxr edirik ki, belə bir dövlətin vətəndaşıyıq, vətəndaş olaraq belə bir orduya sonsuz güvəncimiz var...

Mən də Şərafət ananın çağırışına qoşuluram, əsgərlərimizə "Anaları, bacıları torpaq nisgilindən qurtarın. Siz buna qadirsiniz!" deyirəm...

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**



Bəzən bir nəfərə ünvanlanan məktubu minlər oxuyur. Belə məktublar ictimai xarakterli olduğuna görə olduqca gərəkli ictimai rəy yaradaraq düşüncələrə hopur, vətəndaşın ictimai fəaliyyətinin tərkib hissəsinə çevrilir, yaranmış mövcud ictimai rəyi formalaşdırır. Belə məktublar yeniyetmələrin, çağırışçıların vətənpərvərlik tərbiyəsində əhəmiyyətli rol oynayır.

Hörmətli redaksiya!

Qəzetinizin 29 noyabr tarixli sayında dərc edilən "Əsgər oğluma məktub"məqaləsini belə bir ovqatla oxudum. Universitetdə təhsil aldığım illərdə tələbə yoldaşlarımla müxtəlif mövzularda söhbətləşərdik, əsasən Dağlıq Qarabağdan, torpaqlarımızın işğal olunmasından, ermənilərin təxribatlar törətmək istəməsindən, əsgərlərimizin qətiyyətindən, mərdliyindən, torpaqsevərliyindən danışardıq. Çingiz Qurbanovun qəhrəmanlığı hər birimizi qürurlandırmışdı. İnanmışdıq ki, hər əsgərimiz Çingiz cəsarətlidi, Çingiz hünərlidi.

Zərrəcə şübhə etmirəm ki, Şərafət Muquzovanın oğlu Fərid anasının məktubunu oxuyandan sonra "Arxayın ol, ana. Sənin arzuladığın kimi xidmət edəcəm, Vətəni anam kimi qoruyacam!" - deyib. Uşaq yaşlarında ata-anasına "Mən sizi əjdahalardan qoruyacam" - deyən oğlu indi əsgərdi. Cənubi Qafqazda ən güclü ordunun əsgəridi, Vətənimizi qoruyur. Ali Baş Komandan əmr verərsə, o da döyüşəcək, Böyük Qələbəni qazananların sırasında o da olacaq. Əsgər anası Şərafət Muquzovanın məktubunu həmin günə çağırış bilirəm. Varlığımla inanıram ki, əsgərlərimiz əsgər anasının çağırışını Vətənin çağırışı bilir. Vətənimizə xitabən "Səndən ötrü can verməyə hamımız hazırıq, Vətən!" - deyirlər.

Hörmətli redaksiya!

Qardaşım Kənan orta məktəbdə oxuyur. Zamanında o da hərbi xidmətə gedəcək. Əsgər qardaşıyla qürur duyan bacılardan biri də mən olacam. Onda mənim anam işğaldan azad edilmiş torpaqlarımızda xidmət edəcək oğluna yazacağı məktubda Azərbaycan əsgərinin Böyük Qələbəni necə qazandığını da xatırladacaq...

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

# Xəbərlər:
## hadisələr, faktlar

### Pakistanda kilsəyə hücum nəticəsində həlak olanların sayı doqquz nəfərə çatıb



Pakistanın Bəlucistan əyalətinin Kvetta şəhərinin Zarqun-Roud rayonunda kamikadzenin protestant kilsəsinə hücumu nəticəsində həlak olanların sayı doqquz nəfərə çatıb, 50-dən artıq insan yaralanıb.

Əyalətin daxili işlər naziri Sarfaraz Buqti jurnalistlərə müsahibəsində yaralıların çoxunun vəziyyətinin ağır olduğunu bildirib.

Xəbər verdiyimiz kimi, hadisəni törədən iki terrorçudan birini polis məbədə girərkən güllələyib, digəri isə kilsənin içərisinə girərək özünü partladıb. Partlayış vaxtı kilsədə 400-ə yaxın adam olub.

Qanlı hadisəyə görə məsuliyyəti İŞİD terror təşkilatı artıq öz üzərinə götürüb.

### Sındırıldıqdan sonra yenidən bərpa olunan şüşə yaradılıb



Tokio Universitetinin alimləri sındırıldıqdan sonra yenidən bərpa olunan şüşə yaradıblar.

Alimlər əsas kimi sintetik polimerdən (polikarbonat) istifadə ediblər. Polimerlərdən yaradılan bərk şüşə əvvəlcə iki hissəyə bölünərək sonradan birləşdirilib. Bunun üçün yarıya bölünən şüşənin otaqda adi temperaturda birləşməsinə iki dəqiqə lazım olub. Strukturun tam möhkəmlənməsi və ağırlıqlara dözməsi üçün 1-6 saat gözləmək lazımdır.

Alimlərin fikrincə, şüşənin yenidən bərpası bölünmüş polimer molekullarının əvvəlki halına qayıdan hidrogen birləşmələrinin effekti sayəsində baş verir.

Tokio Universitetinin professoru Yusuke Yanaqisavanın sözlərinə görə, belə xüsusiyyətlərə malik şüşələr ekologiya üçün daha zərərsizdir.

### Yeni planet kəşf edilib



NASA alimləri yeni planet kəşf ediblər.

Alimlər bunun Günəşə ən yaxın planet olduğunu açıqlayıblar. Planetə "Kepler 90" adı verilib. Bu planet Yer kürəsindən üç dəfə böyük, 420 dərəcə istidir.

### Filippində torpaq sürüşməsi azı 26 nəfərin ölümünə səbəb olub



Filippində torpaq sürüşməsi azı 26 nəfərin ölümünə səbəb olub.

Ölkənin Biliran adasında Kay-Tak qasırğası nəticəsində baş verən torpaq sürüşməsində daha 23 nəfər itkin düşüb.

Məlumatda qeyd edilir ki, Kay-Tak qasırğası əsasən Samar və Leyte adalarına ziyan vurub və bu adalarda 88 min insan təxliyə olunub.

### Cakartada on minlərlə insan ABŞ Prezidentinin Qüdslə bağlı qərarına etiraz edib



Dekabrın 17-də Cakartada təqribən 40 min insan küçələrə çıxaraq ABŞ Prezidenti Donald Trampın Qüdsün statusu barədə qərarına etiraz edib.

Minlərlə insan Milli Azadlıq abidəsi yaxınlığında toplaşıb.

ABŞ-ın son həftə ərzində qarşısında bir neçə etiraz aksiyasının keçirildiyi səfirliyi həmin ərazidən təqribən 100 metr məsafədə yerləşir. Mitinqləri İndoneziya Ülamaları Şurası və digər müsəlman təşkilatları təşkil edir.

**AZƏRTAC-ın materialları əsasında**

# Sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı başa çatıb



*Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatı dekabrın 16-da da davam edib.*

Yarışların əvvəlki günlərində 55, 60, 63, 67, 72, 77, 82, 87, 97 və 130 kiloqramadək çəki dərəcələrində yunan-Roma güləşçiləri qüvvələrini sınayıblar. Ümumilikdə 177 yunan-Roma güləşçisinin mübarizə apardığı çempionat gərgin və maraqlı görüşlərlə yadda qalıb.

Ziya Zeynalov (55 kq), Sakit Quliyev (60 kq), Taleh Məmmədov (63 kq), Kamran Məmmədov (67 kq), Ülvi Qənizadə (72 kq), Həsən Əliyev (77 kq), Rafiq Hüseynov (82 kq), İslam Abbasov (87 kq), Türmən Eyyubov (97 kq) və Cavid Feyziyev (130 kq) fəxri kürsünün ən yüksək pillələrində qərarlaşıblar.

Çəki dərəcələri üzrə ilk üç yeri tutmuş idmançılar Azərbaycan Güləş Federasiyası tərəfindən müvafiq diplom, medal və pul mükafatı ilə mükafatlandırılıb. Turnirin qaliblləri yığma komandanın heyətinə cəlb olunacaq və il ərzində



komandanın iştirak edəcəyi beynəlxalq yarışlarda millinin heyətində mübarizə aparacaqlar.

Yarışın sonuncu iki günündə 57, 61, 65, 70, 74, 79, 86, 92, 97 və 125 kq-dək çəki dərəcələrində sərbəst güləşçilər mübarizə aparıb. Ümumilikdə 212 sərbəst güləşçinin çıxış etdiyi çempionat gərgin və maraqlı idman mübarizəsi şəraitində keçirilib.

Çempionatın sərbəst güləş yarışlarında Əfqan Xaşalov (57 kq), Mircəlal Həsənzadə (61 kq), Ağahüseyn Mustafayev (65 kq), Murtuz Müslümov (70 kq), Hacımurad Ömərov (74 kq), Cəbrayıl Həsənov (79 kq), Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov (92 kq), Nurməhəmməd Hacıyev (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) bütün rəqiblərini üstələyərək Azərbaycan çempionu adını qazanıblar.

Bir faktı da vurğulamaq lazımdır ki, qaliblər arasında Mərkəzi Ordu İdmanKlubunun yetirmələri də vardır.

**"Azərbaycan Ordusu"**

# "ADEX-2018" III beynəlxalq müdafiə sərgisinin Bakıda yüksək səviyyədə təşkili üçün hazırlıq aparılır

*2014-cü ildə keçirilən "ADEX" sərgisində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi (MSN) tərəfindən 168 adda məmulat nümayiş etdirildiyi halda, 2016-cı ildə bu rəqəm 260 təşkil edib. Sərginin keçirildiyi günlərdə hərbi-texniki əməkdaşlığın müxtəlif istiqamətləri üzrə razılıqlar əldə olunub, bir sıra layihələrin reallaşdırılması ilə bağlı fikir mübadilələri aparılıb. Eyni zamanda, məmulatların ixracı üzrə memorandum və niyyət protokolları imzalanıb. Hazırda 2018-ci ildə Bakıda keçirilməsi nəzərdə tutulan "ADEX" III Beynəlxalq müdafiə sərgisinin 2014-cü və 2016-cı illərdə keçirilmiş sərgilərdən daha yüksək səviyyədə təşkil olunması üçün hazırlıq işləri aparılır.*




AZƏRTAC xəbər verir ki, bu fikirləri müdafiə sənayesi naziri Yavər Camalov bildirib.

Nazir qeyd edib ki, dövlətimizin başçısının verdiyi tapşırıqlara əsasən, 2009-cu ildən ABŞ, İngiltərə, Almaniya, İtaliya, Rusiya, Fransa, Türkiyə və digər inkişaf etmiş ölkələrin qabaqcıl firma və şirkətlərinin təmsil olunduqları beynəlxalq müdafiə sərgilərinə qatılan MSN cari ilin mayında İstanbulda keçirilmiş "İDEF-2017" beynəlxalq müdafiə sərgisində 260 adda məmulat nümayiş etdirib. Bir sıra yeni məhsullar ziyarətçilərə ilk dəfə təqdim edilib və bu da böyük maraqla qarşılanıb. Sərginin keçirildiyi günlərdə tədbirə qatılan digər ölkələrin nümayəndələri ilə gələn il Bakıda keçiriləcək "ADEX-2018" üçüncü beynəlxalq müdafiə sərgisində iştirakla bağlı razılaşmalar əldə olunub.

"Qısa müddətdə MSN tabeli müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatları beynəlxalq sərgilərdə nümayiş etdirməklə yanaşı, böyük təcrübə toplayaraq Azərbaycanda 2014-cü və 2016-cı illərdə "ADEX" adı altında beynəlxalq müdafiə sərgilərinin keçirilməsinin təşkilatçısına çevrilib. Azərbaycan iki dəfə beynəlxalq müdafiə sərgisinə ev sahibliyi edib. Həmin sərgilərdə nazirliyin müəssisələrində istehsal olunan müdafiə təyinatlı məmulatlar Azərbaycan brendi kimi nümayiş etdirilib. Bu məmulatlar xarici və yerli nümayəndə heyətləri, eləcə də sadə insanlar tərəfindən böyük maraqla qarşılanıb", - deyə Y.Camalov vurğulayıb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Dekabrın 30-da "Açıq qapı" günü keçiriləcək

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına uyğun olaraq, dekabrın 30-da saat 11.00-da Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçiriləcək.

Ziyarətçilər hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə tanış olacaq xidməti, inzibati binalara, əsgər yataqxanaları və yeməkxanalara baş çəkəcəklər. Qonaqlar üçün müxtəlif döyüş texnikaları və silahların nümayişi də təşkil olunacaq.

Hərbi hissələrdə komandanlığın iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran bütün məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 dekabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 132 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli və Bala Cəfərli kəndlərində, Berd rayonunun Ayqepar, Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Ağdam, Koxanəbi və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Gizir Əsgərov Ramal Şadrik oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 770
Nüsxə 4600